AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
2286 nömrəli 28.08 2020-ci il
tarixli qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ
ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050810-Turizm işinin təşkili**

BAKI – 2020

## BAKALAVRİAT SƏVİYYƏSİNİN 050810-TURİZM İŞİNİN TƏŞKİLİ İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

### 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **050810 "Turizm işinin təşkili"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirmək;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

### 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;

- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;
- Həyat boyu öyrənməyə müsbət münasibət bəsləmək, rəhbərlik etdiyi insanların peşəkar bilik və bacarıqlarını artırmaq, özünü şəxsən və peşəkar şəkildə inkişaf etdirmək bacarığına;
- Mürəkkəb sistemləri təhlil etmək, əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemlər arasında əlaqə prinsiplərini dərk etmək, qeyri müəyyən şəraitdə fəaliyyət göstərmək(sistemli düşüncə kompetensiyası);
- Gələcəyin (mümkün,ehtimal edilən,arzu olunan) fərqli variantlarını dərk etmək və qiymətləndirmək qabiliyyəti, gələcək haqqında aydın fikir formalaşdırmaq, fəaliyyətin mümkün nəticələrini qiymətləndirmək, risk və mümkün dəyişiklikləri nəzərə almaq(proqnostik kompetensiya);
- Yerli və qlobal səviyyələrdə dayanıqlığın təmini və yüksəldilməsinə yönəlmiş novator qərarların qərarların kollektiv işlənməsi və gercəkləşdirilməsi bacarığı(strateji baxış kompetensiyası);
- Başqalarından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini anlamaq, qrupda yaranan konfliktləri həll etmək, problemləri kollektivin səyi ilə həll etmək(kollektiv iş kompetensiyası);
- Qəbul olunmuş norma, yanaşma və fikirləri təhlil etmək, öz baxışlarını və fəaliyyətini kritik qiymətləndirmək, dayanıqlı inkişaf məsələləri ilə bağlı diskusiyalarda öz mövqeyini müdafiə etmək(kritik düşüncə kompetensiyası);
- Cəmiyyətdə öz rolunu kritik qiymətləndirmək(özünüdərketmə kompetensiyası);
- Mürəkkəb problemlərin həlli məqsədilə problemə yönəlik fərqli yanaşmalardan istifadə bacarığı, sadalanan kompetensiyalar əsasında kompleks və ədalətli qərarların qəbulu(problemin kompleks həlli kompetensiyası).

2.2. *Məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:*

- Turizm sahəsinə aid anlayışları və əsas məlumatları bilmək, bu məlumatları elmi metodlardan istifadə edərək təhlil etmək bacarığına;
- İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi gösytəriciləri, prosesləri bilmək;
- Sosial elmlər sahəsində elmi tədqiqat biliklərinə və bacarıqlarına;
- Turizm və əlaqəli sahələrdə idarəetmə səriştəsinə;
- Turizm müəssisələrində idarəetmənin beynəlxalq və yerli ölçülərini dərk etmək, müəssisənin daxili və xarici mühitini təhlil etmək bacarığına;
- Turizm sektorunun tələblərinə uyğun olaraq informasiya-kommunikasiya texnologiyalarından və proqramlarından (Excel, Word,Power Point, Photoshop, SPSS, Stata, Python və s.) istifadə edə bilmək bacarığına;
- Makro səviyyədə turizm siyasəti, strategiyaları və proqramlarını təhlil etmək bacarığına;
- Turizm sahəsində Azərbaycanın strateji inkişaf məqsədlərini və prioritetlərini təhlil edə və qiymətləndirə bilmə bacarığına;
- Turizmin iqtisadi fəaliyyət sferası olaraq inkişaf dinamikasını dəyərləndirə bilmək və tələb və təklifin qarşılıqlı əlaqəsindən doğan çağırışların öhdəsindən gəlmək bacarığına;

- Beynəlxalq turizm bazarlarında mövcud və potensial meylləri anlamaq, müqayisə etmək və şərh etmək bacarığına;
- Turizm menecmenti sahəsində qazanılmış bilik və bacarıqları turizmin müxtəlif fəaliyyət sahələrində tətbiq etmək səriştəsinə;
- Dayanıqlı inkişaf məqsədləri kontekstində turizmin təsirlərini qiymətləndirmək və səmərəli turizm planlaşdırmasını həyata keçirmək səriştəsinə;
- Turizm resurslarından istifadə etməklə ekskursiya proqramlarını hazırlamaq bacarığına;
- Turizm sahəsində mövcud problemlərin və risklərin mənbəyini tənqidi düşüncə ilə müəyyənləşdirə bilmək və əsaslandırılmış həll yollarını təklif etmək bacarığına;
- Sahibkarlıq düşüncəsini tətbiq etməklə nəticəyönümlü yenilikçi təklifləri irəli sürmək və həyata keçirmək bacarığına;
- Marketinq fəaliyyətinin elmi-nəzəri və konseptual əsaslarına dair baza biliklərinə sahib olmaq;
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problemi həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işini bilmək və liderlik prinsiplərinə yiyələnmək;
- Elektron bronlaşdırma sistemlərindən istifadə edərək turizm və asudə vaxt xidmətlərini həyata keçirmək bacarığına;
- Turizm resurslarının qiymətləndirilməsini və destinasiyaların inkişaf planlarının hazırlanmasını həyata keçirmək bacarığına;
- Müxtəlif xidmətlərin daxil olduğu turpaketləri hazırlamaq bacarığına;
- Mühasibatlıq üzrə biliklərə malik olmaq və maliyyə hesabatlarını təhlil etmək bacarığına;
- Turizmdə sahibkarlıq fəaliyyətini etik prinsiplərə və qanunvericiliyin tələblərinə uyğun formada təşkil etmək bacarığına;
- Sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı və innovativ biznes metodlarını tətbiq etmək bacarığına;
- Turizm məhsulunun qiymətini müəyyən etmək bacarığına;
- Turizm bazarında xidmətlərin qiymət müxtəlifliyini müqayisə etmək bacarığına;
- Xidmət keyfiyyətini idarə etməyi, o cümlədən turist məmnunluğunu yüksəltmək bacarığına;
- Turizm sahəsində layihələri idarə etmək bacarığına;
- Turizm destinasiyanı idarəedilməsi sahəsində qazanılmış bilikləri tətbiq etmək bacarığına;
- Beynəlxalq mühitdə müxtəlif mədəniyyətlərdən olan insanlara ünsiyyət qurmaq bacarığına.

## 3. Təhsil Proqramının strukturu

3.1. Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycan tarixi**<br>*Bu fənn Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını sistemli şəkildə, xronoloji ardıcıllıqla öyrənir, Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir.* | 5 |

| | | |
|---|---|---|
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn cərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 15 |
| 4 | **Seçmə fənlər** *(Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.)* | |
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitusiyası və Hüququn əsasları<br>Məntiq<br>Etika və estetika<br>Multikulturalizmə giriş | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |
| | **İxtisas fənləri** | **120** |
| 5 | **Turizmə giriş** – *Fənni öyrənməklə Tələbə turizm sahəsində əsas anlayışların və terminlərin mənasını başa düşməli; turizm növlərini və onların xüsusiyyətlərini təsvir etməli; turizm dəyər zəncirində iştirak edən turizm və asudə vaxt sənayesinin, habelə turizmlə əlaqəli sahələrin funksiyalarını izah etməli; turizm sahəsində mövcud olan etibarlı məlumat mənbələrini müəyyən etməli və onlardan istifadə etməlidir.* | 5 |
| 6 | **Turizm coğrafiyası** – *Fənni öyrənməklə Tələbə səyahət və turizm coğrafiyasının əsas anlayışlarını başa düşməli; müasir turizmin regional və qlobal coğrafi fenomen kimi tarixi inkişaf prosesi ilə tanış olmalı; tələb və təklifin turizmlə əlaqəsini təsvir və şərh etməli; Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən turizm bazarlarında turistlərin müasir meyllərini öyrənməli, əsas tələb bazarlarına münasibətdə Azərbaycanda mövcud və təklif edilə biləcək turizm məhsulları barədə nümunələr göstərməli; turizm sahəsində turistlərin səyahət etdiyi əsas qlobal istiqamətləri (destinasiyaları) müəyyən etməli, həmin destinasiyalara turizm axınlarına təsir edən amilləri təsvir və şərh etməli, habelə, dünyanın turizm destinasiyalarında təklif edilən əsas turizm məhsulları barədə nümunələr göstərə bilməlidir.* | 5 |
| 7 | **Biznes riyaziyyatı** - *Fənni öyrənməklə Tələbə biznes problemlərinin həlli üçün əsas riyazı əməliyyatları apara bilməli; müxtəlif bank hesabatları və xidmətləri təhlil edə bilməli; müxtəlif faiz məsələlərini həll edə və əmək haqqını hesablaya bilməli; investisiyaların, biznes və istehlak kreditlərinin təhlilini apara bilməli; pulun indiki dəyəri və gələcək dəyəri kimi iş hesablamaları aparmaq üçün sadə və mürəkkəb faizlərdən istifadə edə bilməli və fərqli problemlər üçün hansı riyaziyyat metodundan istifadə olunacağını fərqləndirməyi bacarmalıdır.* | 6 |
| 8 | **Biznes statistikası** - *Fənni öyrənməklə Tələbə məlumat klassifikasiyasını bilməli, mərkəzə meyl (ədədi orta, moda və median) və yayınma (variasiya, dispersiya, orta kvadratik meyl və s.) ölçülərini hesablamağı və tətbiq etməyi bilməli; diskret və fasiləsiz ehtimal bölgüsünü tətbiq edə bilməli; müxtəlif şərtlər altında bir tərəfli və ikitərəfli hipotez testlərinin qurulması və hesablanmasını bilməli, qərar vermə qaydalarını tətbiq edə bilməli və nəticələri şərh edə bilməli; T statistikası, p dəyəri və etibarlılıq intervalı kimi terminlərin əsas məqsədini başa düşməli və hipotez testləri zamanı istifadə edə bilməli; müxtəlif statistik modellərin qurulmasının bütün mərhələlərini bilməli, ikidəyişənli və çoxdəyişənli* | 5 |

| | | |
|---|---|---|
| | *reqressiya analizlərini apara bilməli, nəticələri izah edə bilməli, T test, F test, ANOVA, MANOVA kimi testləri tətbiq edə bilməli; toplanılmış verilənləri müvafiq proqram təminatından istifadə edərək təhlil edə bilməlidir.* | |
| 9 | **Menecmentin əsasları** - *Fənni öyrənməklə Tələbə menecmentin inkişaf tarixinin əsas mərhələlərini, onun başlıca nəzəriyyələrini və anlayışarını təsvir etməli; biznes idarəetməsi sahəsində əsas anlayışları və menecment funksiyalarını izah etməli; biznes mühitini təhlil etməli və təşkilatın müxtəlif maraqlı tərəflərinin ehtiyaclarını nəzərə almağın yollarını başa düşməli; şirkətin missiya və gələcəyə baxışı ilə bağlı nümunələr göstərə bilməli; müxtəlif idarəetmə səviyyələrində menecerin malik olmalı olduğu bacarıqları, onun icra etdiyi tapşırıqları və oynadığı rolu izah etməlidir.* | 5 |
| 10 | **Marketinqin əsasları** - *Fənni öyrənməklə Tələbə təşkilatın ayrılmaz elementi kimi marketinqin funksiyasını təsvir etməli; marketinqin biznesdə rolunu və onun təsirlərini izah etməli; strateji və əməliyyat marketinqi arasında fərqi ayırd edə bilməli; marketinqin müştəri məmnuniyyətini və dəyəri artırmaq üçün əhəmiyyətini müzakirə etməli; marketinqin əsas anlayışları və alətlərini, habelə istehlak məhsulları/xidmətləri və istehsal məhsulları/xidmətləri arasındakı fərqləri izah etməli; məhsul və xidmət keyfiyyətinin meyarlarını müəyyən etməli; seqmentləşdirmə, hədəfləmə və mövqeləşdirmə anlayışlarını izah etməli; müxtəlif kommunikasiya kanalları və onların xüsusiyyətlərini fərqləndirməli; qlobal və rəqabətli marketinq strategiyalarının əsas xüsusiyyətlərini izah etməli; əməliyyat marketinqinin, məhsul siyasəti və xidmət marketinqinin əsas cəhətlərini izah etməli; xidmətlərin marketinqi üçün uyğun strategiyalar müəyyən etməli; distribusiya və kommunikasiya siyasəti anlayışlarını izah etməli; qiymət siyasətini müəyyən edən amillərin izahını verməli; istehlakçı davranışı və istehlakçıların qərar verməsinə təsir edən əsas amilləri müəyyən etməli; müştəri şikayətlərinə baxılması üçün əsas yanaşmaları müzakirə etməli; brendinqin əsas aspektlərini izah etməlidir* | 5 |
| 11 | **Mikroiqtisadiyyat** - *Fənni öyrənməklə Tələbə əsas iqtisadi anlayışları və iqtisadiyyatın metodlarını başa düşməli; bu iqtisadi anlayışlardan və ibtidai iqtisadi modellərdən istifadə edərək bazar iştirakçılarının (istehlakçı və şirkətlərin) davranışlarını təhlil etməli; istehsal nəzəriyyəsini və bazarın fəaliyyət prinsiplərini şərh edə bilməli; iqtisadi yanaşmaları müxtəlif problemlərə tətbiq etməli; dövlətin bazar iqtisadiyyatı kontekstində tənzimləyici rolunu və funksiyalarını izah etməli; dövlət tərəfindən qəbul olunmuş siyasətləri iqtisadi nöqteyi-nəzərdən izah və təhlil etməlidir.* | 5 |
| 12 | **Makroiqtisadiyyat** - *Fənni öyrənməklə Tələbə makroiqtisadi anlayışların mənalarını başa düşməli; ÜDM, inflyasiya və işsizliklə bağlı məlumatları hesablamalı, toplamalı və şərh etməli; makroiqtisadi siyasətin əsas məqsədlərini (iqtisadi artım, məşğulluq, qiymət sabitliyi və tarazlı ticarət) və alətlərini izah etməli; ibtidai iqtisadi modelləri dünya və ölkə iqtisadiyyatına, mövcud iqtisadi proseslərə və siyasətlərə tətbiq etməlidir.* | 5 |
| 13 | **Mühasibat uçotu** - *Fənni öyrənməklə Tələbə mühasibat uçotu prinsiplərini tətbiq etməli və mühasibat sisteminin müxtəlif bölmələrinin necə əlaqəli olmasını izah etməli; mühasibat uçotu qaydalarının təsirini izah etməli; şirkət hesablarının əsas bazasını hazırlamalı; maliyyə hesabatlarının elementlərini, ikili yazılış sistemini və yoxlama balansını bilməli; mühasibat düzəlişləri daxil olmaqla sadə illik maliyyə hesabatlarını hazırlamalı; özəl və ictimai məhdud şirkətlər arasındakı fərqi izah etməli; istehsalçılar və xidmət təminatçıları üçün şirkət hesablarının əsas bazasını hazırlamalı; yerləşdirmə sənayesi üçün Vahid Hesablama Sistemindən (USALİ) istifadə edərək turizm təşkilatlarının yekun hesabatlarını tətbiq etməli; əsas nisbətlərdən və mühasibat uçotunun digər metodlarından istifadə edib maliyyə nəticələrini təhlil etməli; məsrəf anlayışını müxtəlif qərar qəbuletmə situasiyalarına tətbiq etməlidir.* | 5 |
| 14 | **İdarəetmə uçotu və korporativ qərarların verilməsi** - *Fənni öyrənməklə Tələbə standart idarəetmə uçotu prosedurlarını tam maya dəyəri və ya marjinal dəyərlə tətbiq etməli; CVP kommersiya effekivliyi metodunu tətbiq və təhlil etməli; fərqli proqnoz metodlarından istifadə etməli; turizm əməliyyatları, pul və kapital büdcələrini hazırlamalı, təhlil etməli və şərh etməli; qiymətləri təyin etmək üçün müxtəlif xərclərin hesablanması metodlarından istifadə etməlidir.* | 5 |
| 15 | **Turizmdə nəqliyyat** - *Fənni öyrənməklə Tələbə turizm və nəqliyyat sektoru arasında əlaqəni, eləcə də turizmdə nəqliyyatın xüsusiyyətlərini və növlərini təsvir etməli; turizm nəqliyyatını iqtisadi fəaliyyət növü kimi şərh etməli; beynəlxalq və daxili nəqliyyatın* | 5 |

| | | |
|---|---|---|
| | *turizmin inkişafına təsirlərini izah etməli; nəqliyyatın idarəedilməsi sahəsində nəzəri və praktiki təcrübələri tətbiq etməli; səyahətin planlaşdırılması və turizm məhsulunun hazırlanması sahəsindəki əsas prinsipləri izah etməli və onları müvafiq qaydada tətbiq etməlidir.* | |
| 16 | **Turizm məhsulunun hazırlanması** - *Fənni öyrənməklə Tələbə turizm məhsulunun inkişaf nəzəriyyəsinin əsas anlayışlarını başa düşməli, turizm məhsullarının təbiətini və quruluşunu təsvir edə bilməli; turizm məhsulunun müxtəlif xüsusiyyətlərini fərqləndirməli; turizm məhsulunun yaradılması və inkişafı üçün istifadə olunan metod və strategiyaları tətbiq etməli; turizm məhsulunun inkişafında ümumi keyfiyyət idarəetmə məsələlərini başa düşməli; turizm məhsulunun həyat dövrünü başa düşməli və müxtəlif mərhələlərdə yaranan problemləri müəyyən etməyi bilməli, eləcə də həll yollarını təklif etməli; turizm məhsulunun yaradılmasında beynəlxalq təcrübəni araşdırmalı və yerli əhəmiyyətli innovativ təkliflər irəli sürməlidir.* | 5 |
| 17 | **Turizm siyasəti və planlaşdırılması** - *Fənni öyrənməklə Tələbə turizm siyasətinin hazırlanması və turizm fəaliyyətinin planlaşdırılması sahəsində əsas anlayışlara bələd olmalı; turizm sferasının idarə edilməsi sahəsində dövlətin rolu və funksiyaları ilə tanış olmalı; turizm statistikasının və uçotunun formalaşdırılması, istehlakçı hüquqlarının qorunması, turizm sektorunun inkişafının təşviq edilməsi, turizm xidmətinin keyfiyyətinin artırılması və turizm fəaliyyət növlərinin tənzimlənməsi istiqamətləri üzrə müxtəlif idarəçilik mexanizmləri və modellərini şərh etməli; müxtəlif turizm növlərinin inkişafı ilə əlaqədar dövlət proqramlarını və layihələrini qiymətləndirməli; turizm sahəsininin tənzimlənməsi, təşviq edilməsi ilə bağlı müxtəlif məzmunlu işçi sənədlərini hazırlamağı bacarmalıdır.* | 5 |
| 18 | **Dayanıqlı turizm** - *Fənni öyrənməklə Tələbə turizm və qonaqpərvərlik sənayesində dayanıqlı inkişaf konsepsiyasını və onun əsas elementləri olan iqtisadi rentabellik, icmanın rifahı, müştəri məmnuniyyəti, məşğulluğun keyfiyyəti, sosial bərabərlik, yerli səviyyədə nəzarət, mədəni zənginlik, bioloji müxtəliflik, resurs səmərəliliyi, ekoloji təmizlik və digər analoji prinsiplərin mahiyyətini turizm siyasəti və idarəetməsi çərçivəsində izah etməli; turizmin müxtəlif yan təsirlərini ("spillover effects") müəyyən etməli, bu təsirlərin səbəblərini və nəticələrini izah etməli və onların aradan qaldırılması yollarını təklif etməli; fərqli inkişaf mərhələlərində olan ölkələrdə spesifik turizm məhsullarının və destinasiyalarının dayanıqlı inkişafı üçün tələb olunan alətlər və siyasətlərə nümunələr göstərməlidir.* | 4 |
| 19 | **İnsan resurslarının idarə edilməsi** - *Fənni öyrənməklə Tələbə İR sahəsində işin təşkili ilə bağlı modelləri anlamalı; insan resurslarının idarəedilməsi sahəsində mövcud qanunvericiliklə tanış olmalı və onu İR ilə bağlı fəaliyyətin təşkilində tətbiq etməli; əməkdaşların işə qəbulu, təlimatlandırılması, inkişafı və fəaliyyətinin qiymətləndirilməsini qəbul olunmuş beynəlxalq normalar əsasında təşkil etməli; təşkilat daxilində münaqişə vəziyyətlərini müəyyən etməyi bacarmalı və onların həlli üçün mümkün strategiyalar təklif etməli; qlobal miqyasda insan resurslarının idarəedilməsi ilə bağlı əsas məsələləri müzakirə etməli; bu sahədə texnoloji yeniliklər barəsində fikir yürütməlidir.* | 4 |
| 20 | **Destinasiyaların idarə edilməsi** - *Fənni öyrənməklə Tələbə destinasiyaların idarəedilməsinin əsas anlayışlarını, habelə idarəetmə modellərini başa düşməli; turizm təşkilatlarının destinasiyaların idarəedilməsindəki rolunu təsvir etməli; turizm destinasiyaları üçün səciyyəvi prosesləri və problemləri izah etməli; turizm destinasiyalarında mövcud vəziyyətin təhlilini aparmağı və strateji istiqamətləri müəyyən etməyi bacarmalı; turizm destinasiyasında əsas turizm məhsullarını müəyyən edərək onları inkişaf və təşviq etdirmək səriştələri formalaşdırmalı; destinasiyanın idarəedilməsi sahəsində tələb olunan kompleks bilik və bacarıqlara yiyələnməli; turizm destinasiyalarında meydana çıxan müxtəlif praktiki situasiyaların öhdəsindən gəlmək üçün həll yollarını təklif etməlidir.* | 4 |
| 21 | **Qonaqpərvərlik sahəsinin idarə edilməsi** - *Fənni öyrənməklə Tələbə hotel biznesinin, onun müxtəlif təşkilati forma və növlərinin strukturunu, o cümlədən hotellərdə gündəlik fəaliyyəti və vəzifələri təsvir etməli; hotel fəaliyyətinin iqtisadi mahiyyətini izah etməli; hotellərin uğuru üçün əhəmiyyət kəsb edən amilləri, o cümlədən spesifik trendləri və marketinq fəaliyyətlərini müəyyənləşdirməli; hotellərdə spesifik əməliyyat problemlərini göstərməli və adekvat daxili nəzarətin təmin edilməsi üçün tələb olunan alətləri sadalamalı; hotellərdə müxtəlif praktiki vəziyyətlərin öhdəsindən gəlmək üçün həll yollarını təklif etməlidir.* | 5 |

| | | |
|---|---|---|
| 22 | **Turizm hüququ** - *Fənni öyrənməklə Tələbə turizm sənayesi subyektlərinin hüquqi vəziyyəti barədə əsas məsələləri başa düşməli; turizm hüququ sahəsində əsas milli və beynəlxalq hüquq normalarını izah etməli və onların müqayisəli hüquqi təhlilini aparmalı; turizm hüququnun digər hüquq sahələri ilə qarşılıqlı əlaqələrini izah etməli və digər hüquq sahələrində turizm sənayesinin fəaliyyətini təhlil etməli; turizm sahəsi üzrə beynəlxalq və ya digər nümunəvi ölkələrin hüquq sistemlərini təhlil etməli; turizm sənayesinin inkişafı və dayanıqlılığının təmin edilməsi üzrə yaranan müxtəlif növ hüquqi çətinliklərin təhlilini apara bilməli və həmin təhlilin nəticələrini strateji planlaşdırma kontekstində tətbiq etməlidir.* | 5 |
| 23 | **Turizmdə vasitəçilər** - *Fənni öyrənməklə Tələbə tur operatorları, səyahət agentlikləri və müştərək müəssisələrin strukturu, səyahət sənayesində dəyər zəncirlərinin – təchizatçıların, agentliklərin, turistlərin, turizm məhsullarını t əsvir etməli; tur operatorlar üçün xüsusi tələbləri – biznes tələblərini, kvalifikasiyaları və məhsul barəsində biliyi təqdim etməli; tur paketlərini hazırlamağı və maliyyə planlaşdırılmasının həyata keçirilməsini bacarmalı: paketlərin qiymətləndirilməsi, qiymət siyasəti, tariflər və marketinq alətlərini tətbiq etməlidir.* | 4 |
| 24 | **Sosial tədqiqata giriş** - *Fənni öyrənməklə Tələbə elmin fəlsəfəsinin əsas anlayışlarını və ideyalarını başa düşməli; elmi tədqiqat metodlarını təsnifləşdirməli; keyfiyyət və kəmiyyət əsaslı tədqiqat metodlarını fərqləndirməli və hər birinin əsas xüsusiyyətlərini şərh etməli; elmi tədqiqat prosesinin məntiqini, tələblərini və mərhələlərini şərh etməli və tətbiq etməli; elmi tədqiqatların aparılmasının etik prinsiplərini başa düşməli və tədqiqat fəaliyyətində onlara riayət etməlidir..* | 4 |
| 25 | **Keyfiyyət əsaslı tədqiqat metodları** - *Fənni öyrənməklə Tələbə keyfiyyət əsaslı tədqiqat metodlarının əsas xüsusiyyətlərini və onun etik prinsiplərini təsvir etməli; verilənlərin toplanılması sahəsində əsas keyfiyyət əsaslı tədqiqat metodlarını və yanaşmalarını izah etməli; müəyyən fenomen barəsində verilənləri toplamalı və ibtidai keyfiyyət əsaslı təhlil metodlarını tətbiq etməli; konkret tədqiqat nümunəsi əsasında toplanılmış verilənləri və çıxarılmış nəticələri məruzə etməlidir.* | 5 |
| 26 | **Kəmiyyət əsaslı tədqiqat metodları** - *Fənni öyrənməklə Tələbə kəmiyyət əsaslı tədqiqat metodlarının əsas xüsusiyyətlərini və onun etik aspektlərini təsvir etməli; kəmiyyət əsaslı tədqiqatların hazırlanması metodları ilə tanış olmalı; tədqiqat məqsədlərinə uyğun olaraq verilənlərin toplanılması üçün uyğun metodları seçə bilməli; kəmiyyət əsaslı tədqiqat metodlarından istifadə edərək verilənləri toplamalı, təhlil etməli və məruzə etməli; tədqiqat nəticələrinin qrafik vizualizasiyasını hazırlamalı; statistik təhlillərin aparılması üçün müvafiq proqram təminatından istifadə etməlidir.* | 4 |
| 27 | **Bronlaşdırma sistemləri** - *Fənni öyrənməklə Tələbə müxtəlif elektron bronlaşdırma sistemlərinin funksiyalarını başa düşməli və onları fərqləndirə bilməli; birbaşa satışların əsas prinsiplərini təsvir etməli; müvafiq proqram təminatından istifadə edə bilməli və gəlirlərin idarəedilməsi sahəsində ilkin alətləri tətbiq edə bilməlidir.* | 4 |
| 28 | **Turist davranışı və psixologiyası** - *Fənni öyrənməklə Tələbə turist davranışı və psixologiyası ilə bağlı əsas anlayışlarla tanış olmalı; psixologiya elminə aid müvafiq anlayışları turizm sahəsinə tətbiq edərək turistlərin səyahət motivasiyası, münasibəti və təsəvvürlərinin əsas xüsusiyyətləri izah etməli; turistlərin informasiya əldə etməklə bağlı davranışını, səyahət qərarının verilməsi prosesinin müxtəlif mərhələlərini (xəyal etmə, planlama, sifariş vermə, səyahət etmə, səyahət sonrası xatırlama və tövsiyə vermə) v ə ona təsir edən amilləri, o cümlədən destinasiya ilə bağlı turistlər arasında olan təsəvvürləri təsvir etməli; müxtəlif turist növlərini (macəra sevən, ailə ilə səyahət edən, yaşlı-araşdırmaçı, subay, cütlüklər, tələbə, işgüzar, təcrübəli, orta-yaşlı, təqaüdçü turistlər, sağlamlıq üçün səyahət edənlər, investorlar, yeni ailə quranlar, SSRİ-də doğulanlar, dövlət qulluqçuları, dindar ailə turistləri, eko-turistlər, tarix və mədəniyyət sevənlər turistlər və s.), turizmdə sosial rolları və turistlərin stereotiplərini müzakirə etməli; destinasiya təcrübəsinin əsas xüsusiyyətlərini, o cümlədən emosiyaların əhəmiyyətini izah etməli; turizm destinasiyasının imic təhlilini aparmalıdır* | 5 |
| 29 | **Mülki müdafiə və ilkin tibbi yardım** - *Bu fənni öyrənməklə tələbə Azərbaycan Respublikasının fövqəladə halların idarə olunması, fövqəladə halların xarakteristikasını, fövqəladə hallardan əsas müdafiə üsullarını və vasitələri, fövqəladə hallar zamanı yaranmış şəraitinin qiymətləndirməsi, özünə və digər şəxslərə yardım etməyi, istehsalat* | 6 |

| | | |
|---|---|---|
| | *proseslərində mülki müdafiə planının hazırlanması, turistlərə və və ətrafındakılara ilkin tibbi yardım kimi məsələləri bacarmalıdır* | |
| 30.... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1] *Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır.* | 60 |
| **Təcrübə və buraxılış işi** | | **30** |
| | **Təcrübə** | 21 |
| | **Buraxılış işi** | 9 |
| | **CƏMİ AKTS** | **240** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

---

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin / akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- 050810 – "Turizm işinin təşkili" ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş auditoriyalar, linqafon kabinetləri və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə(magistr, fəlsəfə doktoru, elmlər doktoru) malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

8.3. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.4. Təcrübənin qiymətləndirilməsi: - Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi, Təhsil Nazirliyinin əsasnamələri və digər hüquqi-normativ sənədlər əsasında aparılır.

## 9. Buraxılış işi

9.1. Təhsil Proqramı buraxılış işi ilə tamamlanır.

9.2. Buraxılış işinin qiymtləndirilməsi: - Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi və Təhsil Nazirliyinin əsasnamələri və digər hüquqi-normativ sənədlər əsasında aparılır.

- Buraxılış işi yekun kvalifikasiya xarakterli olmalıdır;

- Buraxılış işindən əvvəl tələbə layihə hazırlayıb təqdim edir;
- Buraxılış işində hər hansı aktual problem önə çıxardılmalı və həll edilməlidir;
- Buraxılış işinin strukturu: giriş, 2-3 fəsil (35-45 səhifə həcmində), nəticə və təkliflər, istifadə edilən ədəbiyyatın siyahısı, qısa xülasə (2 dildə, işin yazıldığı və Xarici dillərdə).
- Buraxılış işinin müdafiyəsi üçün PoverPoint proqramında prezentasiya hazırlanmalıdır.

## 10. Məşğulluq və ömürboyu təhsil

*10.1.* **050810 – "Turizm işinin təşkli"** ixtisası üzrə Təhsil Proqramının məzunları iqtisadiyyatın uyğun sahələrində, turizm və xidmət sahələri üzrə layihə, istehsalat-texnoloji və təşkilati-inzibatçılıq istiqamətlərində istənilən uyğun peşədə işləyə bilərlər

10.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

*10.3.* **050810 – "Turizm işinin təşkli"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "Turizm işinin təşkli" , "Turizm və otelçilik", "Turizm bələdçiliyi" sahələri üzrə Magistr proqramlarında davam etdirə bilərlər.

10.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**RAZILAŞDIRILMIŞDIR:**
Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

____________ Yaqub Piriyev

"28" 08 2020-ci il

Səhiyyə, rifah və xidmət, Əsas (baza ali) tibb təhsili ixtisasları ixtisaslar qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

____________ prof. Gəray Gəraybəyli

"27" 08 2020-ci il

Əlavə 1

## Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri

| Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| PTN 1: (milli dövlətçilik) – Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli bilikləri, dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərini, beynəlxalq arenada Azərbaycan dövlətinin maraqlarını qorumaq qabiliyyətinə malik olduğunu nümayiş etdirir. |
| PTN 2: (biznes idarəetməsi) - Biznesin idarəedilməsi sahəsində hərtərəfli bilik və bacarıqlara yiyələnir – müəssisənin idarəedilməsi ilə bağlı məqsəd və fəaliyyət istiqamətlərini müəyyən edir, müəssəsinin fəaliyyəti ilə əlaqədar meydana çıxan problemləri həll edir, müvafiq metodlardan istifadə etməklə müəssisənin mühasibatlıq və maliyyə fəaliyyətini təşkil edir, müəssisənin investisiya siyasətinin planlaşdırılmasında və həyata keçirilməsində iştirak edir, turizm məhsulunun hazırlanması və onun marketinqinin təşkili prosesinə rəhbərlik edir, müxtəlif layihə idarəetməsi alətlərindən istifadə etməklə layihələrin həyata keçirilməsini təşkil edir. Müəssisənin strateji və cari fəaliyyətinin təşkili zamanı müxtəlif statistika və data analitikası alətləri və metodlarından istifadə edir. |
| PTN 3: (turizm idarəetməsi) – Turistlərin davranışını elmi yanaşmalardan istifadə edərək təhlil edir, tələbə uyğun olaraq turizm ehtiyatlarını təhlil edir və turizm məhsulunun hazırlanması/təkmilləşdirilməsi prosesini təşkil edir, turizm məhsulunun daxili və beynəlxalq turizm bazarlarında marketinqini həyata keçirir, turistlərin istəklərinə və büdcələrinə uyğun yerləşdirmə, qidalanma və nəqliyyat xidmətlərini təşkil edir, destinasiyaların inkişafını planlaşdırır və onların idarəedilməsinə rəhbərlik edir. Turizmin ixtisaslaşmış sahələrinin (sağlamlıq və müalicə turizmi, macəra və idman turizmi, mədəni turizm, MICE və s.) xüsusiyyətlərinə bələd olur və turizm/biznes idarəetməsi sahəsində yiyələndiyi səriştələri bu sahələrə tətbiq edir. |
| PTN 4: (turizm və iqtisadiyyat) – İqtisad elminin əsas anlayışları, nəzəri yanaşmaları və metodlarına bələd olur, mikro və makro səviyyələrdə iqtisadi prosesləri təhlil edir, turizmin iqtisadi fəaliyyət sferası kimi rolunu şərh edir, dövlətin bazar iqtisadiyyatı kontekstində tənzimləyici rolunu və funksiyalarını izah edir. Turizmin ümumi iqtisadiyyat kontekstində əhəmiyyətini təhlil edir, turizm sahəsinin dövlət tərəfindən tənzimlənməsi və inkişaf etdirilməsi prosesində iştirak edir. |
| PTN 5: (etik və hüquqi normalar) – Peşə fəaliyyətini, habelə çalışdığı müəssisənin fəaliyyətini etik prinsiplər, beynəlxalq və milli hüquq normaları əsasında təşkil edir. |
| PTN 6: (tədqiqat bacarıqları) - Kəmiyyət və keyfiyyət əsaslı elmi-tədqiqat metodlarından (o cümlədən, müvafiq proqram təminatından) istifadə etməklə məlumatları toplayır, təhlil edir və kommunikasiya edir. |
| PTN 7: (ünsiyyət bacarıqları) – Azərbaycan dilində və ən azı bir xarici dildə sərbəst işgüzar və akademik ünsiyyət yaradır, hər iki dildə yüksək səviyyədə oxuma, dinləmə, danışıq və yazışma səriştələri formalaşdırır. |
| PTN 8: (praktiki səriştələr) – Peşə fəaliyyətində təşəbbüskarlıq, məsuliyyət, liderlik və komandada işləmək bacarıqlarını nümayiş etdirir, turizm fəaliyyətində rastlaşa biləcəyi gözlənilməz mürəkkəb vəziyyətlərdə məsuliyyəti öz üzərinə götürərək problemi həll edir, bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığını nümayiş |

| |
|---|
| etdirir; danışıqları aparmaq və satış bacarıqlarına yiyələnir; beynəlxalq mühitdə müxtəlif mədəniyyətlərdən olan insanlarla konstruktiv iş münasibətləri saxlayır. |
| PTN 9: (İT bacarıqları) – Peşə fəaliyyəti ilə əlaqədar məsələlərin həlli (layihələrin idarəedilməsi, məzmunun idarəedilməsi, statistik təhlil, bronlaşdırma sistemləri və s.) üçün müvafiq informasiya texnologiyaları, o cümlədən proqram təminatlarından istifadə edir. |

## Fənlər üzrə təlim nəticələri (FTN)

### Azərbaycan tarixi

1. *Azərbaycanın dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırır, bunun üçün dövlətçilik ənənələrinin keçmişi və bu günü haqqında zəruri biliyə malik olduğunu nümayiş etdirir, faktları ümumiləşdirir.*
2. *Əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirilməsində istifadə etmək vərdişlərinə yiyələnir.*
3. *Azərbaycanın dövlətçilik ənənələrinin tarixi haqqında, onun yaranması, formalaşması və inkişafı dinamikasını dövrün xüsisiyyətləri baxımından izah edir, onlar arasında səbəb və nəticə əlaqələrini təhlil edir və ona münasibət bildirir.*
4. *Müasir Azərbaycan dövlətçiliyinin formalaşmasına təsir edən siyasi, ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil və tədqiq edir, fəal vətəndaşlıq mövqeyi nümayiş etdirir,*
5. *Müasir Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişafında tarixi şəxsiyyətlərin rolunu dəyərləndirir.*
6. *Müasir dünyada Azərbaycan dövlətçiliyinin yeri və rolunu sistemli təhlil edir, fərziyyə və mülahizələr irəli sürür, təkliflər verir, debatlarda, diskussiyalarda, müzakirələrdə ictimai rəy formalaşdıran məsələlər ətrafında təkliflərlə çıxış edir.*

### Azərbaycan dilində işgüzar və akademik kommunikasiya

1. *Təlim prosesində akademik dildə təqdimat etməyi bacarır.*
2. *Natiqlik bacarığını mənimsəyir və tətbiq edir.*
3. *Akademik və işgüzar yazı bacarıqlarını mənimsəyir və tətbiq edir.*
4. *Təlim prosesində qazandıqları bilikləri tətbiq etməyi bacarır.*
5. *Məqsədəuyğun seçdiyi metod və vasitələrin əhəmiyyətini əsaslandırmaq və təcrübədə tətbiq etməyi bacarmaq.*
6. *Təlim nailiyyətlərini qiymətləndirmək üçün müvafiq meyarları seçir və tətbiq edir.*

### Xarici dildə işgüzar və akademik kommunikasiya

1. *Ən çox əlaqəli olan sahələrə (şəxsi və ailə məlumatları, alış-veriş, yerli coğrafiya, məşğulluq və s.) aid məlumatları bilir və sadə cümlələrlə ifadə edir.*
2. *Gündəlik həyatda sadə cümlələrlərdən istifadə etməklə ünsiyyət qurur.*
3. *Müxtəlif işgüzar vəziyyətlərdə ünsiyyət qurur.*
4. *Gündəlik və peşə həyatlarında qarşılaşa biləcəkləri fərqli kontekstlərdə şifahi şəkildə ünsiyyət qurur.*
5. *İşgüzar və akademik yazının xüsusiyyətlərini bilir, fərqli kontekstdə mətnlər hazırlayır.*
6. *Akademik və işgüzar nitqin məzmununu və quruluşunu bilir, ünsiyyət əlaqələrində istifadə edir.*

### Turizmə giriş

1. *Turizm sahəsində əsas anlayışların və terminlərin mənasını başa düşür.*
2. *Turizm növlərini və onların xüsusiyyətlərini təsvir edir.*
3. *Turizmin formalarını təsvir edir.*
4. *Turizm dəyər zəncirində iştirak edən turizm və asudə vaxt sənayesi haqqında məlumatlı müzakirə aparır.*
5. *Turizmlə əlaqəli sahələrin funksiyalarını izah edir.*
6. *Turizm sahəsində mövcud olan etibarlı məlumat mənbələrini müəyyən edir və onlardan istifadə edir.*

### Turizm coğrafiyası

1. *Səyahət və turizm coğrafiyasının əsas anlayışlarını başa düşür.*
2. *Tələb və təklifin turizmlə əlaqəsini təsvir və şərh edir.*
3. *Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən turizm bazarlarında turistlərin müasir meyllərini öyrənir, əsas tələb bazarlarına münasibətdə Azərbaycanda mövcud və təklif ediləbiləcək turizm məhsulları barədə nümunələr göstərərir.*
4. *Turizm sahəsində turistlərin səyahət etdiyi əsas qlobal istiqamətləri (destinasiyaları) müəyyən edir.*
5. *Həmin destinasiyalara turizm axınlarına təsir edən amilləri təsvir və şərh edir.*
6. *Dünyanın turizm destinasiyalarında təklif edilən əsas turizm məhsulları barədə nümunələr göstərərir.*

| Biznes riyaziyyatı |
| --- |
| 1. Biznes problemlərinin həlli üçün əsas riyazi əməliyyatları aparır.<br>2. Müxtəlif bank hesabatları və xidmətləri təhlil edir.<br>3. Müxtəlif faiz məsələlərini həll edir və əmək haqqını hesablayır.<br>4. İnvestisiyaların, biznes və istehlak kreditlərinin təhlilini aparır.<br>5. Pulun indiki dəyəri və gələcək dəyəri kimi iş hesablamaları aparmaq üçün sadə və mürəkkəb faizlərdən istifadə edir.<br>6. Fərqli problemlər üçün hansı riyaziyyat metodundan istifadə olunacağını fərqləndirməyi bacarır. |
| **Biznes statistikası** |
| 1. Məlumat klassifikasiyasını bilir.<br>2. Mərkəzə meyl (ədədi orta, moda və median) və yayınma (variasiya, dispersiya, orta kvadratik meyl və s.) ölçülərini hesablayır və tətbiq edir.<br>3. Diskret və fasiləsiz ehtimal bölgüsünü tətbiq edir.<br>4. Müxtəlif şərtlər altında birtərəfli və ikitərəfli hipotez testlərinin qurulması və hesablanmasını, qərar vermə qaydalarını tətbiq edir və nəticələri şərh edir.<br>5. T statistikası, p dəyəri və etibarlılıq intervalı kimi terminlərin əsas məqsədini başa düşür və hipotez testləri zamanı istifadə edir; müxtəlif statistik modellərin qurulmasının bütün mərhələlərini bilir.<br>6. İkidəyişənli və çoxdəyişənli reqressiya analizlərini apara bilir, T test, F test, ANOVA, MANOVA kimi testləri tətbiq edir, toplanılmış verilənləri müvafiq proqram təminatından istifadə edərək təhlil edir. |
| **Menecmentin əsasları** |
| 1. Menecmentin inkişaf tarixinin əsas mərhələlərini, onun başlıca nəzəriyyələrini və anlayışarını təsvir edir.<br>2. Biznes idarəetməsi sahəsində əsas anlayışları və menecment funksiyalarını izah edir.<br>3. Biznes mühitini təhlil etməyi və təşkilatın müxtəlif maraqlı tərəflərinin ehtiyaclarını nəzərə almağın yollarını başa düşür.<br>4. Şirkətin missiya və gələcəyə baxışı ilə bağlı nümunələr göstərir.<br>5. Müxtəlif idarəetmə səviyyələrində menecerin malik olduğu bacarıqlara yiyələnir.<br>6. Menecerin icra etdiyi tapşırıqları və təşkilatda oynadığı rolu izah edir. |
| **Marketinqin əsasları** |
| 1. Təşkilatın ayrılmaz elementi kimi marketinqin funksiyasını təsvir edir.<br>2. Marketinqin biznesdə rolunu və onun təsirlərini izah edir.<br>3. Strateji və əməliyyat marketinqi arasında fərqi ayırd edir, əməliyyat marketinqinin, məhsul siyasəti və xidmət marketinqinin əsas cəhətlərini izah edir.<br>4. Marketinqin müştəri məmnuniyyətini və dəyəri artırmaq üçün əhəmiyyətini müzakirə edir.<br>5. Marketinqin əsas anlayışları və alətlərini, habelə istehlak məhsulları/xidmətləri və istehsal məhsulları/xidmətləri arasındakı fərqləri izah edir.<br>6. Seqmentləşdirmə, hədəfləmə və mövqeləşdirmə anlayışlarını izah edir, müxtəlif kommunikasiya kanalları və onların xüsusiyyətlərini fərqləndirir. |
| **Mikroiqtisadiyyat** |
| 1. Tələbə makroiqtisadi anlayışların mənalarını başa düşür.<br>2. ÜDM, inflyasiya və işsizliklə bağlı məlumatları hesablayır.<br>3. ÜDM, inflyasiya və işsizliklə bağlı məlumatları toplamağı və şərh etməyi bacarır.<br>4. Mikroiqtisadi siyasətin əsas məqsədlərini (iqtisadi artım, məşğulluq, qiymət sabitliyi və tarazlı ticarət) və alətlərini izah edir.<br>5. İbtidai iqtisadi modelləri dünya və ölkə iqtisadiyyatına tətbiq edir.<br>6. İqtisadi modelləri mövcud iqtisadi proseslərə və siyasətlərə tətbiq edir. |
| **Makroiqtisadiyyat** |
| 1. Tələbə əsas iqtisadi anlayışları və iqtisadiyyatın metodlarını başa düşür.<br>2. Bu iqtisadi anlayışlardan və ibtidai iqtisadi modellərdən istifadə edərək bazar iştirakçılarının (istehlakçı və şirkətlərin) davranışlarını təhlil edir.<br>3. İstehsal nəzəriyyəsini və bazarın fəaliyyət prinsiplərini şərh edir.<br>4. İqtisadi yanaşmaları müxtəlif problemlərə tətbiq etməyi bacarır.<br>5. Dövlətin bazar iqtisadiyyatı kontekstində tənzimləyici rolunu və funksiyalarını izah edir.<br>6. Dövlət tərəfindən qəbul olunmuş siyasətləri iqtisadi nöqteyi-nəzərdən izah və təhlil edir. |
| **Mühasibat uçotu** |
| 1. Mühasibat uçotu prinsiplərini tətbiq edir və mühasibat sisteminin müxtəlif bölmələrinin qarşılıqlı əlaqəsini izah edir.<br>2. Mühasibat uçotu qaydalarının təsirini izah edir və şirkət hesablarının əsas bazasını hazırlayır. |

3. Maliyyə hesabatlarının elementlərini, ikili yazılış sistemini və yoxlama balansını bilir, mühasibat düzəlişləri daxil olmaqla sadə illik maliyyə hesabatlarını hazırlayır.
4. Özəl və ictimai məhdud şirkətlər arasındakı fərqi izah edir, istehsalçılar və xidmət təminatçıları üçün şirkət hesablarının əsas bazasını hazırlayır.
5. Yerləşdirmə sənayesi üçün Vahid Hesablama Sistemindən istifadə edərək turizm təşkilatlarının yekun hesabatlarını tətbiq edir.
6. Əsas nisbətlərdən və mühasibat uçotunun digər metodlarından istifadə edib maliyyə nəticələrini təhlil edir, məsrəf anlayışını müxtəlif qərar qəbuletmə situasiyalarına tətbiq edir.

## İdarəetmə uçotu və korporativ qərarların verilməsi

1. Tələbə standart idarəetmə uçotu prosedurlarını tam maya dəyəri və ya marjinal dəyərlə tətbiq edir.
2. CVP kommersiya effekivliyi metodunu tətbiq və təhlil edir.
3. Fərqli proqnoz metodlarından istifadə etməyi bacarır.
4. Turizm əməliyyatları, pul və kapital büdcələrini hazırlayır.
5. Turizm əməliyyatları, pul və kapital büdcələrini təhlil və şərh edir.
6. Qiymətləri təyin etmək üçün müxtəlif xərclərin hesablanması metodlarından istifadə edir.

## Turizmdə nəqliyyat

1. Turizm və nəqliyyat sektoru arasında əlaqəni izah edir.
2. Turizmdə nəqliyyatın xüsusiyyətlərini və növlərini təsvir edir.
3. Turizm nəqliyyatını iqtisadi fəaliyyət növü kimi şərh etməyi bacarır.
4. Beynəlxalq və daxili nəqliyyatın turizmin inkişafına təsirlərini izah edir.
5. Nəqliyyatın idarəedilməsi sahəsində nəzəri və praktiki təcrübələri tətbiq edir.
6. Səyahətin planlaşdırılması və turizm məhsulunun hazırlanmasında nəqliyyatdan istifadənin əsas prinsiplərini izah edir və onları müvafiq qaydada tətbiq edir.

## Turizm məhsulunun hazırlanması

1. Turizm məhsulu haqqında əsas anlayışları başa düşür.
2. Turizm məhsullarının təbiətini və quruluşunu təsvir edir.
3. Turizm məhsulunun müxtəlif xüsusiyyətlərini fərqləndirir, onun yaradılması və inkişafı üçün istifadə olunan metod və strategiyaları tətbiq edir.
4. Turizm məhsulunun inkişafında ümumi keyfiyyət idarəetmə məsələlərini başa düşür və nəzərə alır.
5. Turizm məhsulunun həyat dövrünü başa düşür, məhsulun hazırlanmasının müxtəlif mərhələlərində yaranan problemləri müəyyən edir, eləcə də həll yollarını təklif edir.
6. Turizm məhsulunun yaradılmasında beynəlxalq təcrübəni araşdırır, yerli əhəmiyyətli innovativ təkliflər irəli sürür.

## Turizm siyasəti və planlaşdırılması

1. Turizm siyasətinin hazırlanması və turizm fəaliyyətinin planlaşdırılması sahəsində əsas anlayışlara bələd olur.
2. Turizm sferasının idarə edilməsi sahəsində dövlətin rolu və funksiyaları ilə tanış olur.
3. Turizm statistikasının və uçotunun formalaşdırılmasını bacarır.
4. Turizm xidmətinin keyfiyyətinin artırılması, istehlakçı hüquqlarının qorunması, turizm sektorunun inkişafının təşviq edilməsi və turizm fəaliyyət növlərinin tənzimlənməsi istiqamətləri üzrə müxtəlif idarəçilik mexanizmləri və modellərini şərh edir.
5. Müxtəlif turizm növlərinin inkişafı ilə əlaqədar dövlət proqramlarını və layihələrini qiymətləndirir.
6. Turizm sahəsininin tənzimlənməsi, təşviq edilməsi ilə bağlı müxtəlif məzmunlu işçi sənədlərini hazırlamağı bacarır.

## Dayanıqlı turizm

1. Turizm və qonaqpərvərlik sənayesində dayanıqlı inkişaf konsepsiyasının mahiyyətini izah edir.
2. Dayanıqlı inkişafın əsas elementləri olan iqtisadi rentabellik, icmanın rifahı, müştəri məmnuniyyəti, məşğulluğun keyfiyyəti, sosial bərabərlik, yerli səviyyədə nəzarət, mədəni zənginlik, bioloji müxtəliflik, resurs səmərəliliyi, ekoloji təmizlik və digər analoji prinsiplərin mahiyyətini turizm siyasəti və idarəetməsi çərçivəsində izah edir.
3. Turizmin müxtəlif yan təsirlərini (ing. "spillover effects") müəyyən edə bilir.
4. Turizmin ətraf mühitə təsirinin səbəblərini və nəticələrini izah edir.
5. Ətraf mühitə mənfi təsirlərin aradan qaldırılması yollarını təklif edir.
6. Fərqli inkişaf mərhələlərində olan ölkələrdə spesifik turizm məhsullarının və destinasiyalarının dayanıqlı inkişafı üçün tələb olunan alətlər və siyasətlərə nümunələr göstərir.

## İnsan resurslarının idarə edilməsi

1. İnsan resursları sahəsində işin təşkili ilə bağlı modelləri anlayır.
2. İnsan resurslarının idarəedilməsi sahəsində mövcud qanunvericiliklə tanış olur və onu bu sahədə fəaliyyətin təşkilində tətbiq edir.
3. Əməkdaşların işə qəbulunu, təlimatlandırılmasını, inkişafını və fəaliyyətinin qiymətləndirilməsini qəbul olunmuş

| |
|---|
| beynəlxalq normalar əsasında təşkil edir.<br>4. Təşkilat daxilində münaqişə vəziyyətlərini müəyyən etməyi bacarır və onların həlli üçün mümkün strategiyalar təklif edir.<br>5. Qlobal miqyasda insan resurslarının idarəedilməsi ilə bağlı əsas məsələləri müzakirə edir.<br>6. Bu sahədə texnoloji yeniliklər barəsində fikir yürüdə bilir. |
| **Destinasiyaların idarə edilməsi** |
| 1. Tələbə destinasiyaların idarəedilməsinin əsas anlayışlarını, habelə idarəetmə modellərini başa düşür.<br>2. Turizm təşkilatlarının destinasiyaların idarəedilməsindəki rolunu təsvir edir.<br>3. Turizm destinasiyaları üçün səciyyəvi prosesləri və problemləri izah edir.<br>4. Turizm destinasiyalarında mövcud vəziyyətin təhlilini aparmağı, strateji istiqamətləri və əsas turizm məhsullarını müəyyən edərək onları inkişaf etdirməyi və təşviq etməyi bacarır.<br>5. Destinasiyanın idarəedilməsi sahəsində tələb olunan kompleks bilik və bacarıqlara yiyələnir.<br>6. Turizm destinasiyalarında meydana çıxan müxtəlif praktiki situasiyaların öhdəsindən gəlmək üçün həll yollarını təklif edir. |
| **Qonaqpərvərlik sahəsinin idarə edilməsi** |
| 1. Hotel biznesinin, onun müxtəlif təşkilati forma və növlərinin strukturunu təsvir edir.<br>2. Hotellərdə gündəlik fəaliyyəti və vəzifələri təsvir edir.<br>3. Hotel fəaliyyətinin iqtisadi mahiyyətini izah edir.<br>4. Hotellərin uğuru üçün əhəmiyyət kəsb edən amilləri, o cümlədən spesifik trendləri və marketinq fəaliyyətlərini müəyyənləşdirməyi bacarır.<br>5. Hotellərdə spesifik əməliyyat problemlərini göstərir və adekvat daxili nəzarətin təmin edilməsi üçün tələb olunan alətləri sadalayır.<br>6. Hotellərdə müxtəlif praktiki vəziyyətlərin öhdəsindən gəlmək üçün həll yollarını təklif edir. |
| **Turizm hüququ** |
| 1. Turizm sənayesi subyektlərinin hüquqi vəziyyəti barədə əsas məsələləri başa düşür.<br>2. Turizm hüququ sahəsində əsas milli və beynəlxalq hüquq normalarını izah edir və onların müqayisəli hüquqi təhlilini aparır.<br>3. Turizm hüququnun digər hüquq sahələri ilə qarşılıqlı əlaqələrini izah edir və digər hüquq sahələrində turizm sənayesinin fəaliyyətini təhlil edir.<br>4. Turizm sahəsi üzrə beynəlxalq və ya digər nümunəvi ölkələrin hüquq sistemlərini təhlil edir.<br>5. Turizm sənayesinin inkişafı və dayanıqlılığının təmin edilməsi üzrə yaranan müxtəlif növ hüquqi çətinliklərin təhlilini apara bilir.<br>6. Təhlilin nəticələrini strateji planlaşdırma kontekstində tətbiq edir. |
| **Turizmdə vasitəçilər** |
| 1. Tələbə tur operatorları, səyahət agentlikləri və müştərək müəssisələrin strukturunu, onların yaradılması qaydalarını bilir.<br>2. Turizm sənayesinə daxil olan iştirakçıları və onları rollarını təsvir edir.<br>3. Tur operatorlar üçün xüsusi tələbləri – biznes tələblərini, kvalifikasiyaları və məhsul barəsində biliyi təqdim edir.<br>4. Tur paketləri hazırlamağı və maliyyə planlaşdırılmasını həyata keçirir.<br>5. Tur paketlərin qiymətləndirilməsi, qiymət siyasəti, tarifər və marketinq alətlərini tətbiq edir.<br>6. Turpaketlərin turistlərə satışı kanallarını izah edir. |
| **Sosial tədqiqata giriş** |
| 1. Elmin fəlsəfəsinin əsas anlayışlarını və ideyalarını başa düşür.<br>2. Elmi tədqiqat metodlarını təsnifləşdirir.<br>3. Keyfiyyət əsaslı tədqiqat metodlarını fərqləndirir və onun əsas xüsusiyyətlərini şərh edir.<br>4. Kəmiyyət əsaslı tədqiqat metodlarını fərqləndirir və onun əsas xüsusiyyətlərini şərh edir.<br>5. Elmi tədqiqat prosesinin məntiqini, tələblərini və mərhələlərini şərh edir və tətbiq edir.<br>6. Elmi tədqiqatların aparılmasının etik prinsiplərini başa düşür və tədqiqat fəaliyyətində onlara riayət edir. |
| **Keyfiyyət əsaslı tədqiqat metodları** |
| 1. Keyfiyyət əsaslı tədqiqat metodlarının əsas xüsusiyyətlərini və onun etik prinsiplərini təsvir edir.<br>2. Keyfiyyət əsaslı tədqiqat metodlarının əsas xüsusiyyətlərini izah edir.<br>3. Verilənlərin (ing. "data") toplanılması sahəsində keyfiyyət əsaslı tədqiqat metodlarını və yanaşmaları izah edir.<br>4. Müəyyən fenomen barəsində verilənləri toplamağı bacarır.<br>5. İbtidai keyfiyyət əsaslı təhlil metodlarını tətbiq edə bilir.<br>6. Konkret tədqiqat nümunəsi əsasında toplanılmış verilənləri və çıxarılmış nəticələri məruzə edir. |

| Kəmiyyət əsaslı tədqiqat metodları |
|---|
| 1. Tələbə kəmiyyət əsaslı tədqiqat metodlarının əsas xüsusiyyətlərini və onun etik aspektlərini təsvir edir.<br>2. Kemiyyət əsaslı tədqiqatların hazırlanması metodları ilə tanış olur.<br>3. Tədqiqat məqsədlərinə uyğun olaraq verilənlərin toplanılması üçün uyğun metodları seçir.<br>4. Kemiyyət əsaslı tədqiqat metodlarından istifadə edərək verilənləri toplamağı, təhlil etməyi və məruzə etməyi bacarır.<br>5. Tədqiqat nəticələrinin qrafik vizualizasiyasını hazırlayır.<br>6. Statistik təhlillərin aparılması üçün müvafiq proqram təminatından istifadə edir. |
| **Bronlaşdırma sistemləri** |
| 1. Tələbə müxtəlif elektron bronlaşdırma sistemlərinin funksiyalarını başa düşür.<br>2. Müxtəlif bronlaşdırma sistemlərini fərqləndirə bilir.<br>3. Birbaşa satışların əsas prinsiplərini təsvir etməyi bacarır.<br>4. Müvafiq proqram təminatından istifadə edir.<br>5. Gəlirlərin idarəedilməsi sahəsində ilkin alətləri tətbiq edir.<br>6. Bronlaşdırma sistemlərinin ən azı birindən (Amadeus, Qalileo, Opera, Sabre və s.) müstəqil surətdə istifadə edir. |
| **Turist davranışı və psoxologiyası** |
| 1. Tələbə turist davranışı və psixologiyası ilə bağlı əsas anlayışlarla tanış olur.<br>2. Psixologiya elminə aid müvafiq anlayışları turizm sahəsinə tətbiq edərək turistlərin səyahət motivasiyası, münasibəti və təsəvvürlərinin əsas xüsusiyyətləri izah edir.<br>3. Turistlərin informasiya əldə etməklə bağlı davranışını, səyahət qərarının verilməsi prosesinin müxtəlif mərhələlərini (xəyal etmə, planlama, sifariş vermə, səyahət etmə, səyahət sonrası xatırlama və tövsiyə vermə) və ona təsir edən amilləri, o cümlədən destinasiya ilə bağlı turistlər arasında olan təsəvvürləri təsvir və şərh edir.<br>4. Müxtəlif turist növlərini (macəra sevən, ailə ilə səyahət edən, yaşlı-araşdırmaçı, subay, cütlüklər, tələbə, işgüzar, təcrübəli, orta-yaşlı, təqaüdçü turistlər, sağlamlıq üçün səyahət edənlər, investorlar, yeni ailə quranlar, SSRİ-də doğulanlar, dövlət qulluqçuları, dindar ailə turistləri, eko-turistlər, tarix və mədəniyyət sevənlər turistlər və s.), turizmdə sosial rolları və turistlərin stereotiplərini müzakirə edir.<br>5. Destinasiya təcrübəsinin əsas xüsusiyyətlərini, o cümlədən emosiyaların əhəmiyyətini izah edir.<br>6. Turizm destinasiyasının imic təhlilini aparır. |
| **Mülki müdafiə və ilkin tibbi yardım** |
| 1. Fövqəladə hallarda əhalinin müdafiəsinin və ərazinin mühafizəsinin əsas üsullarını, kollektiv və fərdi mühafizə vasitələrini bilir, onlardan istifadə qaydalarını şərh edir.<br>2. Fövqəladə hallar zamanı rabitə və xəbərdarlıq sistemlərinin vacibliyini bilir və onlardan istifadə qaydalarını nümayiş etdirir.<br>3. Fövqəladə hallarda evdə, küçədə, məktəbdə davranış qaydalarını bilir və ona əməl edir.<br>4. Fövqəladə hallarda tənəffüs üzvlərinin qorunması üçün sadə vasitələrin necə hazırlanması və istifadə qaydalarını bilir və şərh edir.<br>5. Müxtəlif zədələnmə zamanı ilk tibbi yardımın məqsəd və vəzifələrini, prinsiplərini, göstərilmə qaydalarını bilir və tətbiq edir.<br>6. Geniş yayılmış xəstəliklərin növlərini, onların yaranma səbəblərini, əlamətlərini, profilaktikasını, yoluxucu xəstəliklərdən qorunma qaydalarını bilir və şərh edir. |

**Əlavə 2**

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının və hər fənn üzrə təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyən etməlidir.

| | | **Proqramın təlim nəticələri** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Blokun adı** | **Fənlərin adı** | **PTN 1** | **PTN 2** | **PTN 3** | **PTN 4** | **PTN 5** | **PTN 6** | **PTN 7** | **PTN 8** | **PTN 9** |
| **Ümumi fənlər** | Azərbaycan tarixi | X | | | | | | | | |
| | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | | | | | | | X | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | | | | | | | X | | |
| **Seçmə fənlər** | | | | | | | | | | |
| **İxtisas fənləri** | Turizmə giriş | | X | X | X | X | | | | |
| | Turizm coğrafiyası | | X | X | X | | | | | |
| | Biznes riyaziyyatı | | X | | | | X | | | X |
| | Biznes statistikası | | X | | X | | X | | | X |
| | Menecmentin əsasları | | X | X | X | X | | | X | X |
| | Marketinqin əsasları | | X | X | | X | X | | | X |
| | Mikroiqtisadiyyat | | X | | X | | X | | | X |
| | Makroiqtisadiyyat | | X | | X | | X | | | X |
| | Mühasibat uçotu | | X | | | X | | | | X |
| | İdarəetmə uçotu və korporativ qərarların verilməsi | | X | | | X | | | | X |
| | Turizmdə nəqliyyat | | X | X | X | X | | | | X |
| | Turizm məhsulunun hazırlanması | | X | X | | X | X | | X | X |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Turizm siyasəti və planlaşdırılması | X | X | X | X | X | X | | | |
| | Dayanıqlı turizm | X | X | X | X | X | | | | |
| | İnsan resurslarının idarə edilməsi | | X | | | X | | | | X |
| | Destinasiyaların idarə edilməsi | X | X | X | X | X | X | | X | X |
| | Qonaqpərvərlik sahəsinin idarə edilməsi | | X | X | X | X | X | | X | X |
| | Turizm hüququ | X | X | X | X | X | X | | X | |
| | Turizmdə vasitəçilər | | X | X | X | X | X | | X | X |
| | Sosial tədqiqata giriş | | | X | | X | X | | | |
| | Keyfiyyət əsaslı tədqiqat metodları | | | X | | X | X | | | X |
| | Kəmiyyət əsaslı tədqiqat metodları | | X | X | X | X | X | | | X |
| | Bronlaşdırma sistemləri | | X | X | | X | | | | X |
| | Turist davranışı və psixologiyası | | X | X | X | X | X | | | |
| | Mülki müdafiə və ilkin tibbi yardım | X | | X | | X | | | | |

Əlavə 3

**Fənnin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları**

Fənni tədris edən müəllim fənn üzrə təlim nəticələrinin (bir fənn üzrə ən çoxu 4-5 sayda təlim nəticəsi) və hər təlim nəticəsi üzrə təlim və öyrənmə metodlarını, eləcə də qiymətləndirmə üsullarını müəyyən etməlidir. *Bunun üçün aşağıdakı cədvəldən istifadə edilməlidir.*

| Fənnin adı | Təlim nəticələri | Hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları | Hər bir təlim nəticəsi üçün istifadə olunan qiymətləndirmə üsulları |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |